Rücudan istifadə etməklə şairin fikiri daha da təsirli çıxmışdır. Ovqat etibarı ilə birinci qəm, kədər, ələm əhval-ruhiyyəlidirsə, ikinci beyt birincinin əksinə olaraq fərəh, sevinc dolu əhval-ruhiyyədədir. Belə hal bədii ovqatın xarakterini qəfildən dəyişməsi muğam ifaçılığında da təzahür edir.

Məsələn: "Çahargah" muğamında kulminasiya şöbəsi olan "Mənsuriyyə" cox əzəmətli, təntənəli və qələbə himni kimi səslənir. Bu ovqat, "Do" mayəli "Segah" muğamına rücu edilməklə tamamilə fərqli olan lirik, həzn, sevgi, məhəbbət ovqatı ilə əvəz edilir. Qısa, epizodik ifadan sonra yenə əvvəlki mövzuya "Mənsuriyyə"yə dönüş edilir.

"Bayatı Şiraz" muğamında da belə təsvir vastələrinin təzahürünə rast gəlinir. Minor əhval-ruhiyyəli "Zil Bayatı Şiraz" şöbəsindən major ovqatlı "Xavəran" şöbəsinə və ya şaqraq xarakterli "Hüzzal" şöbəsindən "Rast" muğamının lirik, kövrək xarakterli "Şikəsteyi fars" şöbəsinə keçid və əvvəlki mövzuya qayıdışı da nümunə gətirmək olar. Bu zaman muğamın əsas sujet xətinə əlavə edilən bu kimi təsvir və ifadə vastələri muğamın əsas mövzusunu kögədə qoymamamalı, nəticədə "Ricət" və "Rücu" öz uzunçuluğu ilə dinləyicini yorub, diqqəti əsas mövzudan yayındırmamalıdır.

"Təkrir" – nitqi, fikri, ifani daha da təsirli qüvvəli etmək üçün bədii təsvir vasitəsi kimi "Təkrir"dən də istifadə edilir [2].

Bir-birinə yaxın sözlərin, musiqidə hər hansı bir musiqi cümləsinin, və ya frazanın müxtəlif yüksəklikdə, intonasiyalarda təkrarı təkrir yaradır.

Bədii əsərlərdə eyni sözün təkrarı "Təkrir" adlanır. Lakin müsiqidə isə musiqi ifadəsinin eyni tonda, ucalıqda sabit təkrarı kanonik sekvensiya adlanır ki, bunu da biz muğam sənətində söz və musiqinin vəhdətindən irəli gələn "Təkrir" təsvir vasitəsi ilə də müqayisə edə bilərik.

Məsələn: "Mən baxıram", "Mən görürəm", "Mən sevirəm" cümlələrində "Mən" sözünün üç dəfə təkrarlanması ifadəni gücləndirmir, bu sadəcə təkrardır. Təkrar isə fikri, təsviri, ifadəni qüvvətləndirmir daha da zəiflədir. Təkrarı "Təkrir"dən ayıran başlıca cəhət, təkrarın qeyri-bədii təsir bağışlamasındadır.

Süleyman Rüstəmin

Üsyan yarat, üsyan yarat, üsyan yarat, üsyan!
Bu əsrdə məsud yaşamaq haqq yolu tapmaq,
Üsyanladır, üsyanladır, üsyanladır ancaq.

və yaxud Cəfər Cabbarlının

Qoy gülləri ya qan sulasın, yaxud ədalət,
Qoy ya bəşəriyyət yaşasın, yaxud ədalət!

-kimi misralarında “Üsyan yarat” və “Üsyanladır” ifadələrinin, habelə “Qoy” sözünü təkrarı fikiri daha da qüvvətləndirir və ifadəli edir.

İnstrumental muğam və xanəndə ifaçılığında da bədii təsvir və ifadə vastəsi kimi təkrir elementləri kifayət qədərdir.

Məsələn: ”Sol” mayəli “Rast” muğamının “Əraq” şöbəsinin bir instrumental cüməlsinə diqqət edək:



Bu cümlə “Rast” ailəsinə daxil olan “Orta mahur”, “Mahur hindi”, “Bayatı Qacar” muğamlarının da tərkib cümlələrindən biridir. “Orta mahur” muğamında bu gəziş “Dad” adlanır. Metro-ritmik və intonasiya baxımından tam oxşar olduqlarından adı çəkilən qohum muğamlarda da bu cümləni “Dad” adlandırmaq olar.

Təqdim olunan not nümunəsi bitkin bir fikiri ifadə edir. Əgər burada mövcud olan motivləri təkrar etsək, heç bir bədii təsvir və ifadə aydınlığı olmayacaq, əksinə yorucu bir təkrarlıq ortaya çıxacaq. Lakin, muğam ifası zamanı melodik cümlənin kanonik sekvensiyaya əsaskanan diatonik hərəkətlə yuxarı istiqamətdə kreşşendo ilə hərəkəti bədii təsir və ifadəliliyinin daha da qüvvətləndirir.

Ustad xanəndələr də öz ifalarına rövnəq və zənginlik vermək üçün “Təkrir”dən istifadə etmiş və hal-hazırda da etməkdədirlər. Bunun üçün ifa zamanı qəzəlin düzgün seçilməsi, bəhrin dəqiq təyini vacibdir. Qəzəldə uyğun misra və ya sözlər varsa, onları oxunan şöbə və ya guşənin avazatina uyğunlaşdıraraq “Təkrir” yaratmaq olar.

Məşhur xanəndə, xalq artisti Hacıbaba Hüseynovun Az.TV-də 1975-ci ildə ifa etdiyi“Zabul segah dəstgahında (lent yazısı məqalə müəllifinin arxivində qorunur) yaratdığı “Təkrir” bu cəhətdə maraqlıdır [3]. Dəstgahın “Mayə” şöbəsində S.Ə.Şirvaninin

Fələk ədavət edər xatiri – müşəvəş ilə,
Bular nəki nədir bu aşiqi bəlakeş ilə.

mətləli qəzəlinin “*Üzün, gözün, dəhənin, qamətin, iki gözün*” misrasında böyük sənətkar çox ustalıqla “Təkrir” yaradaraq mətnin və muğam şöbəsinin bədii təsir gücünü artırmış, gözəl obrazının əlamətlərini “Təkrir”dən istifadə etməklə daha da cazibədar etmişdir.



Adi halda, əgər misra monoton, bəsit bir avaz üzərində oxunardısa, bu zaman misranın heç bir bədii-estetik təsir gücü olmazdı. Klassik ədəbiyyata və onun qayda-qanunlarına dərindən bələd olan H.Hüseynov bu misrada "Təkrir" yolu ilə sözlə muğamın, ideya-məzmunun vəhdətini yarada bilmişdir.

Xanəndələr və instrumental muğam ifaçıları ədəbi-bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə muğamla sözün, bədii obrazla ideya-məzmunun vəhdətinə nail olar və öz yaradıcılıq imkanlarını daha da genişləndirə bilərlər.

ƏDƏBİYYAT

1. Hacıyev C.X. Ədəbiyyat nəzəriyyəsi (8-10-cu siniflər üçün). Azərbaycan Dövlət Nəşriyyatı. Bakı,1958.
2. Yusifov R.Ə. Ədəbiyyatşunaslığın əsasları. "Sabah" nəşriyyatı. Bakı,2001.
3. Hüseynov H.H. Xanəndə. Xalq artisti "Zabul segah" dəstgahının lent yazısı.
4. Əhmədov K.Ə. Tarzən. Respublikanın Əməkdar Mədəniyyət işçisi. Muğam ifalarının lent yazıları.

Məqalənin redaksiyaya daxil olma tarixi: 19.10.2016
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24.11.2016
Məqalənin çapa qəbul olunma tarixi: 18.03.2017
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.

UOT 78:373.5

Arzu İsmayılova
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı, Şəmsi Bədəlbəyli 98
e-mall: arzu_ismailova68@mail.ru

SEVDA İBRAHİMOVANIN "ÜÇ POLİFONİK PYESİ"

Açar sözlər: *S.İbrahimova.. Üç polifonik pyes. Öyrənilmə xüsusiyyətləri*

Məqalədə pianoçunun inkişafında polifonik musiqinin əhəmiyyəti araşdırılır. Müəllif hesab edir ki, ibtidai təlim mərhələsində gənc musiqiçilərin repertuar seçimini polifonik quruluşa malik milli musiqi nümunələrinə istinadən həyata keçirilməsi daha effektiv və münasibdir.

Арзу Исмайлова

«ТРИ ПОЛИФОНИЧЕСКИЕ ПЬЕСЫ» С.ИБРАГИМОВОЙ

Ключевые слова: *С.Ибрагимова. Три полифонические пьесы. Особенности изучения*

В статье рассматривается роль полифонической музыки в развитии пианиста. Автор считает, что на начальном этапе обучения роль образцов национальной музыки полифонического склада является наиболее эффективным и оптимальным учебным репертуаром для юного пианиста

Arzu Ismailova

"THREE POLYPHONIC PLAYS" BY S.IBRAHIMOVA

Key words: *S. Ibrahimova. Three polyphonic plays. Educational features*

The article uncovers the role of polyphonic music in the pianist's development. The author considers that the most optimal and effective repertoire for a young pianist at the starting point of musical education should be presented by polyphonic national compositions.

Polifonik repertuarın öyrənilməsi fortepiano təliminin bütün mərhələlərində müəyyən çətinliklər doğurur. Rast gəlinən çətinlikləri minimal həddə endirmək üçün tədris prosesinin əlverişli qavrayış, müntəzəmlik, ardıcıllıq, davamlılıq, fərdi yanaşma, nəzəriyyə və təcrübənin qarşılıqlı əlaqəsi kimi məlum prinsiplərinə dayaqlanması zəruridir.

Polifonik repertuarın öyrənilməsinin hər bir mərhələsində qeyd olunan təlim prinsipləri sonradan daha mürəkkəb materialın qavrayışı üçün əsaslı bünövrə təşkil edir. Bu baxımdan, məşhur Azərbaycan bəstəkarı Sevda İbrahimovanın "Üç pyesi" ibtidai təlim mərhələsində polifonik musiqinin tədrisi üçün çox maraqlı musiqi materialıdır.

Müəllif əsərin musiqi materialı zəminində gənc ifaçıları polifonik faktura və ona dair ifa xüsusiyyətləri ilə tanış edir. Şübhəsiz ki, pedaqoq təlim prosesində ilk öncə bu terminin mənasını sadə və maraqlı tərzdə izah etməli, polifonik musiqi, onun növləri və özünəməxsus xüsusiyyətləri haqqında elementar təsəvvür yaratmalıdır.

Vacib məqamlardan biri də, şagirdin royal alətinin çoxsəsli səciyyəsindən qaynaqlanan üstünlüyünü dərk etməsidir. Yəni, pianoçu daim çoxsəsli musiqini ifa edərək qavramalı, təlim prosesində şagirdə fortepiano fakturasının həm ayrı-ayrı üfüqi, həm də bütöv şaquli elementlərini eşitmə və dərk etmə bacarıqları aşılanmalıdır. A.B.Qoldenveyzer qeyd edirdi: "Ən sadə melodiya belə müşayiət ilə birgə artıq iki xətdən ibarətdir. Yalnız hər bir xəttin sərbəst axıcılığı və eyni zamanda bir-birindən asılılığı yaxşı ifanın təminatçısıdır. Pianoçuların çox az qismi mürəkkəb fakturanı elə ifa etməyə müvəffəq olur ki, dinləyici öz diqqətini yalnız bir elementə yönəltdiyi təqdirdə bu elementin özlüyündə canlı, bədii xətti təmsil etdiyini hiss edir" (1, s.62).

Məlumdur ki, polifoniya ifa və qavranılmasının çətinliyinə rəğmən, təlim repertuarının mütləq janrları siyahısındadır. Ifaçılıq əngəllərinin aradan qaldırılması üçün polifonik əsərlərin kifayət qədər zəngin repertuar seçimi mövcuddur. Repertuar seçimi isə məqsədəuyğun, ardıcıl şəkildə həyata keçirilməli və aşağıdakı müddəalara əsaslanmalıdır.

Polifonik repertuarın tədris prosesi öyrənilən əsərlərin ardıcıl seçiminə əsaslanmalı, yəni, şagirdin qavrayışı üçün daha anlaşıqlı və bəsit musiqi nümunələrindən daha mürəkkəb əsərlərə doğru tənzimlənməlidir. Şagird ilk öncə polifoniyanın səsaltı, təzadlı və imitasiyalı elementləri ilə tanış olur. Uşaqlar üçün nəzərdə tutulmuş fortepiano ədəbiyyatında təzadlı səs sırasının səsaltı yaxud imitasiyalı elementlərlə uyğunlaşdırılmasına rast gəlinir. Nəzərə almaq lazımdır ki, şagirdin ifa repertuarı polifonik quruluşun bütün növləri, polifonik yazının fərqli xüsusiyyətləri ilə əhatələnməli, həmçinin gənc ifaçı polifonik repertuarın zənginliyi haqqında geniş məlumat qazanmalıdır. Təklif olunmuş polifonik repertuar şagirdə bədii-estetik baxımdan da maraqlı